# *Türkiyəli nazir:* "Hesab edirik ki, Ermənistan son hadisələrdən dərs aldı"

Münaqişənin həlli nəticəsində yeni nəqliyyat dəhlizlərinin açılması, o cümlədən Naxçıvanla Azərbaycan arasındakı dəhliz bütün regionun inkişafına xidmət edəcək.

AZƏRTAC xəbər verir ki, bunu noyabrın 12-də keçirilən mətbuat konfransında Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu deyib.

Nazir noyabrın 10-da imzalanmış bəyanatın əhəmiyyətini qeyd edərək ümidvar olduğunu bildirib ki, Ermənistan əldə edilmiş razılaşma çərçivəsində bütün öhdəliklərini yerinə yetirəcək. Hesab edirik ki, Ermənistan son hadisələrdən dərs aldı.

"Bizim üçün önəmli olan işğalın bitməsidir. Biz bundan sonra da Azərbaycanın yanında olacağıq", - deyə Mövlud Çavuşoğlu qeyd edib.

Azərbaycan.- 2020.- 13 noyabr.- S.5.